# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**“Azərbaycanda pensiya islahatlarına dəstək – Faza 2”**



**İcra müddəti:** 02.08.2022 - 02.08.2024

**ŞT ölkələri:**

Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 1 500 000

**Ümumi büdcə:** € 1 500 000

**İcraçı təşkilat(lar):**

The Ministry of Social Security and Labour of the Republic of Lithuania (MSSL), The State Social Insurance Fund Board under the Ministry of Social Security and

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:**

**Layihənin təsviri:**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, 2 avqust 2022-ci il tarixində icrasına başlanılmış və ümumilikdə 24 ay davam edəcək “Azərbaycanda pensiya islahatlarına dəstək – Faza 2” Tvinninq Layihəsi, Azərbaycan Respublikası və Litva Respublikasının birgə layihəsidir. Layihə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Litva Respublikasının Sosial Təminat və Əmək Nazirliyi tərəfindən Litvanın digər strukturları ilə birgə həyata keçirilir.

Layihənin ümumi məqsədi Azərbaycanda pensiya sisteminin dayanıqlığının gücləndirilməsinə töhfə verməkdir. Layihə çərçivəsində xüsusi şərtlərlə pensiya təyinatının ümumi pensiya sisteminə daxil edilməsi mexanizmlərinə, rəqəmsallaşmanın
təkmilləşdirilməsinə, məlumatların toplanmasına və istifadəsinə, siyasi qərarların qəbulu üçün xüsusi proqnozlaşdırma vasitələrinin yaradılmasına, strateji planlaşdırmada potensialın gücləndirilməsi fəaliyyətlərinə xüsusi diqqət yetiriləcək.

**Gözlənilən nəticələr:**

Nəticə 1. Hərtərəfli, dayanıqlı və səmərəli pensiya sistemi üçün zəruri olan tənzimləyici və institusional çərçivələr gücləndirildi;
Nəticə 2. Pensiya sisteminin rəqəmsallaşdırılması asanlaşdırıldı;
Nəticə 3. Məlumatların toplanması, emalı, qiymətləndirilməsi, nəzarət və hesabat sistemi müasirləşdirildi;
Nəticə 4. Pensiya təminatında yeni aktuar modellər və proqnozlaşdırma üsulları işlənib hazırlandı.